təşəkkür məktubu

**Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının sədri cənab Anar Bağırova**

**Yevlax şəhəri, Nizami prospekti 196-da yaşayan, vətən müharibəsində iki övladını döyüş bölgəsinə göndərmiş, övladlarından biri ağır şəkildə yaralanaraq qazi olmuş, bügünə kimi onun bel sütunun qırılması ilə əlaqədar qospitalizasiya vəziyyətində saxlanılan Ağamməmədov Yusif Fizuli oğlunun anası Ağaməmmədova Rəfiqə Nəsir qızı tərəfindən**
**Tel: 051-444-13-15**

# Ə R İ Z Ə

**Hörmətli Anar müəllim,**

Mənim iki oğlum döyüş bölgəsində ermәni ilə üz-üzə idi. Oğlumun biri Ağaməmmədov Yusif Fizuli oğlu aldığı güllə yarasından onurğa sütunu qırılmış, ağır vəziyyətdə Xəzər rayonu, Buzovna qəsəbəsində yerləşən qospitala yerləşdirilmişdir. Digər oğlum isə 708 saylı hərbi hissədə bügünə kimi döyüş bölgəsindədir. Hər iki övladım dövlətimizə, Prezidentimizə yüksək sədaqətlilik nümayiş etdirərək Ali Baş Komandanın bütün tapşırıqlarını ləyaqətlə və şücayətlə icra etmişlər.

Mən bir qazi anası olaraq, qazi olmuş,bügünə kimi güllə yarasından onurğa sütunu sınmış oğluma zəruri köməklik edilməsi üçün Yevlax şəhər Vəkil Bürosuna müraciət etmişəm. Rəhbərlik tərəfindən yüksək səviyyədə qəbul edilərək mənim bütün hüquqi yazışlamalarım ödənişsiz olaraq icra edilmiş, hətta göndərilmə xərcləri belə Büronun vəsaiti hesabına təmin edilmişdir. Mən burada real kömək və qayğını gördüm. Bu ərizəni ürəyimin istəyi olaraq Sizə göndərərək, Sizə minnətdarlığımı bildirirəm. Çox sağolun.

**Imza:** [signature] **Ağaməmmədova Rəfiqə Nəsir qızı**
**16.12.2020**

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 2513
« 23 » 12 2020 il